ASTARALILAR XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ EHTİRAMLA YAD ETMİŞLƏR

Astara şəhərində Xocalı faciəsinin 20-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilmişdir. Rayon icra hakimiyyətinin başçısı Taleh Qaraşov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, əmək kollektivlərinin və ictimaiyyətin nümayəndələri, şəhər sakinləri əvvəl şəhidlərin xatirə kompleksini ziyarət etmiş, kompleksin önünə əklil və tər qərənfillər düzmüşlər.

Tədbir rayon icra hakimiyyətinin iclas zalında davam etdirilmişdir. İcra başçısı Taleh Qaraşov tədbiri açaraq XX yüzilliyin sonunda ermənı şovinistlərinin Xocalı şəhərində köməksiz, əliyalın insanlara qarşı törətdikləri dəhşətli soyqırımı barədə danışmış, faciənin beynəlxalq miqyasda tanıdılması üçün vaxtında heç bir iş görülmədiyini qeyd etmişdir. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidilə hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilmiş və faciə ilə bağlı Milli Məclisin qəbul etdiyi qərar və bəyanat dünya parlamentlərinə, beynəlxalq təşkilatlara göndərilmişdir.

İcra başçısı bildirmişdir ki, ulu öndərin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyilə Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ardıcıl və məqsədyönlü tədbirlər görülür, dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılar Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəal iş aparırlar.

Rayon icra hakimiyyəti başçısının müavini Natiq İbadov Xocalıda törədilmiş qətliam haqqında geniş məruzə etmiş, bu qanlı faciəni bəşəriyyətə qarşı ağır cinayət kimi dəyərləndirmiş, dünya birliyinin Xocalı soyqırımına siyasi qiymət verməsinin vacibliyini diqqətə çatdırmışdır.

Rayon icra hakimiyyəti başçısı aparatının ictimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsinin müdiri, "Xocalım–ağrım mənim" kitabının müəllifi, şair Mərasim Hacızadə, rayon məhkəməsinin sədri İsmayıl Abdurəhmanlı, Kijəbə qəsəbə tam orta məktəbinin müəllimi, respublikanın əməkdar müəllimi Azər Kişiyev, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Astara rayon komitəsinin sədri Laləzar Qurbanova, Astara Pedaqoji Kollecinin müəllimi Ruslan Əliyev çıxışlarında bildirmişlər ki, Xocalı faciəsi Azərbaycan tarixinin ən qanlı səhifəsi olmaqla yanaşı, ermənı faşistləri tərəfindən törədilmiş amansız cinayət, kütləvi soyqırımıdır. Xalqımız bu dəhşətli faciəni heç zaman unutmayacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq və möhtərəm Prezidentimizin uğurlu siyasəti sayəsində işğal altında olan bütün torpaqlarımız geri alınacaqdır. Bunu Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində aparılan işlərin getdikcə geniş miqyas alması və ölkəmizin gündən-günə artan beynəlxalq nüfuzu da əyani təsdiq edir.

Əlisəfa HƏSƏNOV,
"Respublika".

Moskva Dövlət Universitetinin Bakı Filialı magistraturaya qəbul elan edir

Bakı, 1 mart (AzərTAc). M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı Filialı 2012-2013-cü tədris ili üçün (rus bölməsi, əyaniyyat (6 yer), kompyuter elmləri (2 yer) və kimya (6 yer) ixtisasları üzrə qəbul elan edir.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından (TQDK) bildirmişlər ki, magistraturaya qəbul olmaq istəyən bakalavrlar birinci mərhələdə TQDK-nın keçirdiyi imtahanlarda, ikinci mərhələdə isə MDU-nun yaratdığı Qəbul komissiyasının keçirdiyi qəbul sınaqlarında iştirak etməlidirlər.

Qəbul komissiyası tərəfindən aparılan qəbul sınaqlarında yalnız TQDK-nın keçirdiyi test imtahanlarında 45 və daha artıq bal toplayan bakalavrlar iştirak edə bilər. Müsabiqə MDU-nun yaratdığı Qəbul komissiyasının keçirdiyi sınaqların nəticələri əsasında aparılacaqdır.

Qəbul sınaqlarında iştirak etmək istəyənlər TQDK tərəfindən magistraturaya keçirilən qəbul imtahanlarının birinci mərhələsinin nəticəsini və ali təhsil haqqında sənədi universitetin qəbul komissiyasına təqdim etməlidirlər.

Filialın tədris fəaliyyəti M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tədris planı və proqramları əsasında həyata keçirilir. Tədrisdə innovasiya texnologiyaları və metodlarından istifadə olunur. Azərbaycan vətəndaşları üçün təhsil ödənişsizdir.

Filialın məzunlarına M.V.Lomonosov adına MDU-nun magistr diplomu təqdim ediləcəkdir.

Sənəd qəbulunun müddəti və MDU-nun yaratdığı Qəbul komissiyasının keçirdiyi qəbul sınaqlarının qrafiki aprelin 8-dək elan olunacaqdır.

Magistraturada təhsil almaq istəyən bakalavrlar ətraflı məlumatları www.tqdk.gov.az internet səhifəsindən əldə edə bilərlər. (Əlaqə telefonu: 510 96 08).

AZƏRBAYCAN-KANADA TƏŞKİLATLARI ASSOSİASİYASI AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ TORPAQLARINDA ERMƏNİSTANIN MƏHKUMLARIN MƏSKUNLAŞDIRILMASI SİYASƏTİNƏ DAİR ETİRAZ BƏYANATI YAYMIŞDIR

Bakı, 1 mart (AzərTAc). Azərbaycan-Kanada Təşkilatları Assosiasiyası (AKTA) Azərbaycanın işğal olunmuş torpaqlarında Ermənistanın məhkumların məskunlaşdırılması siyasətinə dair etiraz bəyanatı yaymışdır.

Bəyanatda Azərbaycanın işğal olunmuş torpaqlarında Ermənistanın məhkumların məskunlaşdırılmasına dair siyasəti tənqid edilir. Bəyanatda müstəmləkəçilik dövrlərində geniş tətbiq olunan belə bir təcrübənin mənfi fəsadlar doğurması xüsusi vurğulanır.

Bundan əlavə, bəyanatda AKTA Kanada hökumətini Ermənistanın məlum niyyətini pisləməyə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə xələl yetirə biləcək istənilən addımdan çəkindirmək məqsədilə beynəlxalq ictimaiyyəti Ermənistan rəhbərliyinə təzyiq göstərməyə çağırır. ■

Aparıcı media strukturlarının rəhbərləri BSU-nun tələbələri ilə görüşmüşlər

Bakı, 1 mart (AzərTAc). Martın 1-də Bakı Slavyan Universitetində (BSU) bu ali məktəbin müəllim və tələbələri Azərbaycanın aparıcı media strukturlarının rəhbərləri ilə görüşmüşlər. Görüşdə internet-media, qəzetlərin fəaliyyəti, peşəkar kadrlara tələbat və bir sıra başqa mövzular müzakirə olunmuşdur.

Universitetin tələbə və müəllimləri ilə görüşə Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərə Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, respublikanın aparıcı mətbuat orqanlarının və informasiya agentliklərinin rəhbərləri gəlmişdi.

BSU-nun rektoru, professor *Kamal Abdullayev tədbiri giriş* sözü ilə *açaraq qeyd etmişdir* ki, bu görüşün təşkil edilməsinin məqsədi jurnalistika fakültəsinin və bütövlükdə bu ali məktəbin tələbələri üçün respublikanın aparıcı KİV-lərinin nümayəndələri ilə bilavasitə əlaqədə olmaq, onları maraqlandıran suallara cavab almaq imkanı yaratmaqdır. Rektor bildirmişdir ki, universitetin tələbələri həmin qəzetlərin redaksiyalarında və agentliklərdə müntəmadi təcrübə keçir. Azərbaycanın tanınmış jurnalistlərinin ustad dərslərində iştirak edirlər. Rektor media strukturlarının rəhbərlərinə müraciət edərək onları jurnalistlər, 11 dildən tərcüməçilər, habelə Polşa, Bolqarıstan, Ukrayna, Belarus və digər ölkələr üzrə regionşünaslar hazırlayan BSU-nun tələbələrini işə fəal cəlb etməyə çağırmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərə Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli qeyd etmişdir ki, tələbələrin müəyyən hissəsi istehsalat təcrübəsi keçəndən sonra müvafiq mətbuat orqanlarında qalıb işləyir. O, tələbələrə media strukturlarında 4 aylıq ödənişli təcrübə keçməyi təklif etmişdir.

Görüşdə gələcək jurnalistlərin və tərcüməçilərin iş ilə təmin olunması məsələsinə xüsusi diqqət yetirilmişdir. Qəzetlərin nümayəndələri qeyd etmişlər ki, hazırda peşəkar tərcüməçilərin, habelə analitik materiallar yazmağı bacaran jurnalistlərin çatışmaması kəskin hiss olunur. Vüqar Səfərli vurğulamışdır ki, bu gün qəzetlərin müəyyən profillər üzrə yaxşı mütəxəssislərə ehtiyacı vardır. O demişdir: "Hazırda qəzetlərdə işləyən qeyri-peşəkarlar da çoxdur. Bu səbəbdən, oxucuların həmin qəzetlərə marağı yetərincə yüksək deyildir".

Görüşdə informasiyanın operativliyi, mətbu nəşrlər və internet-media arasında rəqabət, müasir informasiya məkanında sosial şəbəkələrin rolu və başqa məsələlər də müzakirə edilmişdir. Jurnalistlərin ümumi fikrinə görə, internet-media mətbu nəşrləri tamamilə sıxışdırıb aradan çıxara bilməyəcək, bu media növlərinin hər biri informasiya məkanında öz yerini tapacaqdır.

Görüş iştirakçıları tələbələri media strukturlarda işə daha fəal cəlb etməyi, ədəbi əsərlərin nəşrinə diqqəti artırmağı, neqativ informasiyadan uzaq olmağı təklif etmişlər. ■

Azərbaycan poemasının sənətkarlıq problemi

Bütün şüurlu həyatını poeziyamızın boy artımına, elmə, səmərəli pedaqoji fəaliyyətə həsr etməklə şöhrətlənən Rafiq Yusifoğlunun çoxşaxəli və zəngin elmi araşdırmaları, mənəvi keyfiyyətləri barədə daha geniş söhbət açmaq olar. Bu dəyərli alimin poeziya, dramaturgiya, ədəbiyyatşünaslığımızın tarixi, uşaq ədəbiyyatı və publisistika məsələlərinə dair sanballı kitablarının və məqalələrinin əhəmiyyətini əsla azaltmadan deyə bilərik ki, o, məhz Azərbaycan poemalarının, daha doğrusu, janrın sənətkarlıq xüsusiyyətləri baxımından problemin mahir tədqiqatçısı kimi tanınır və təqdir olunur. Rafiq Yusifoğlunun giriş, beş fəsil, on səkkiz yarımfəsli özündə ehtiva edən "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri (2010)" adlı fundamental monoqrafiyası bunun bariz nümunəsidir. Araşdırmanın mahiyyətinə vardıqda onun necə böyük zəhmət və gərgin yaradıcılıq axtarışları bahasına başa gəldiyini, elmi dövriyyədə özəl yerini aydın dərk edir və fərəhlənirsən. Mövzunun şərhi prosesinə 424 elmi və bədii ədəbiyyatın cəlb edilməsi də özlüyündə çox mətləblərdən soraq verir.

Maraq doğuran cəhətlərdən biri monoqrafiyanın "Giriş"ində mahiyyət açıqlamaları ilə "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunun rakurs zənginliyi və kontekst genişliyi haqda ilkin təəssürün sərgilənməsidir. Digər tərəfdən, mövzunun çeşidli qövslər müstəvisində incələnməsi araşdırmaçının bədii-tarixi, nəzəri-estetik düşüncə çevrəsinin genişliyindən qaynaqlanmışdır.

"Poemanın strukturu və bədii formanın tipologiyası" fəslinin ilk sırada yer alması təsadüfi deyil. Mövzunun tədqiqi məntiqindən qaynaqlanan bu fəsil əlbəttə ki, tarixi zaman müstəvisində poemanın janr strukturuna varmaq və iç dünyasında baş verən keyfiyyət dəyişikliyi haqda konseptual düşüncə sərgiləməyə hesablanmışdır. Mahiyyətdən qaynaqlandığına görə bu kontekst seçimi müəllifə poemanın intəhasız poetik dünyasında ümumini (mövzu-struktur) müxtəlifliklə axtarmaq imkanı vermişdir. Poemanın strukturunu bədii forma tipologiyası ilə bir araya gətirib dəxildən ilgiləmək istəyi tədqiqatı "Janrın inkişaf meyilləri", "Poema və ədəbi tənqid", "Poemanın tipləri", "Süjet və olun təkamülü" və digər yarımfəsillər dairəsində irəlilətməyə münbit zəmin yaratmışdır. Problemi xronoloji baxımdan deyil, struktur əsasda öyrənməyə üstünlük verən müəllifin süjeti poetik konsepsiya məqamında dəyərləndirməsi fəslin ideyasına adekvat cavabdan qaynaqlanmışdır. Mövzunun tipoloji tədqiqi oxucuya məhz klassik irsdən və folklor qaynaqlarından qədərincə bəhrələnmək imkanı vermişdir.

Poemanı pafosuna və tarixi arealına görə "janrlar janrı" deyə səciyyələndirən Rafiq Yusifoğlu haqlı olaraq bu qənaətə gəlir ki, janrda "qorunub saxlanılanla" yanaşı, axtarışların bəhrəsi olan dəyişiklik də gəraklidir. Monoqrafiyanın Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətlərinin təkamül müstəvisində incələnməsinə hesablanan "Zaman və qəhrəman" adlı ikinci fəsli müvafiq olaraq üç yarımfəsli özündə ehtiva edir. Fəslin tədqiqat materialı tarixi zamanın ideologiyası üstündə köklənən ədəbi-nəzəri konsepsiya ilə bədii örnəklərin ilgisinin müstəviyə çıxarılmasına zəmin yaratmışdır. Çünki sosialist realizmi dönəminin tələblərinə dayaqlanan Azərbaycan şairlərinin poema örnəklərinin, əlbəttə ki, yeni ədəbiyyatşünaslıq düşüncəsi müstəvisində dəyərləndirilməsinə böyük ehtiyac duyulurdu. Bunu da məhz mahir tədqiqatçı araşdırmasının strukturunda ustalıqla səciyyələndirə bilmişdir. Fəslin "Qəhrəman həyatda və ədəbiyyatda" adlı yarımfəsli özünün konseptuallığı ilə fərqlənir və açıqlamaların çevrəsini genişləndirməyə təkan vermək baxımından mühüm maraq kəsb edir.

"Konflikt və xarakterlər" adlı üçüncü fəslin ideyasının predmetləşdirilməsinə hesablanan "Bədii konflikt", "Daxili münaqişə", "Yeni xarakter axtarışları" kimi yarımfəsillər mövzu-problematika, tarixlə təmas, şairvətəndaş missiyası ilə bağlı konseptual mülahizələr yürütmək baxımından səciyyəvi olmaqla, tədqiqatçının elmi-nəzəri baxışlarının konkret təyinatlı bölmələrdə gerçəkləşməsinə münbit zəmin yaratması ilə xarakterizə olunur. Tədqiqatçının sözügedən çağın poetik örnəklərinə dəyər verərkən tarixiliyə dayaqlanaraq müasirliyin pafosu haqda qənaətlər sərgiləməsi erudik imkanlarının genişliyindən soraq verir. Məsələn, monoqrafiyanın "Yeni xarakter axtarışları" yarımfəsli "Bədii sənətkarlıq komponentləri" adlı dördüncü fəslə keçidin mühüm struktur məqamı kimi müstəviyə çıxarılmasını zəruri etmişdir. Yarımfəsillərdəki mahiyyətə yönəlmiş təhlillər bir daha isbat edir ki, Azərbaycan poemasının forma və məzmununda tarixləşmiş mühüm səciyyəvi cəhətlərin çağdaş elmi ədəbiyyatşünaslıq düşüncəsi əsasında aşkarlanıb ümumiləşdirilməsi günün tələbidir və bu arzulanlar monoqrafiya müəllifinin inandırıcı elmi qənaətləri əsasında öz təsdiqini tapır. Bunu deyərkən biz eyni zamanda araşdırmaçının əsərində "Bədii portret", "Peyzaj", "Bədii detal", "Bədii təsvir və ifadə vasitələri" kimi lokal komponentlərin "Bədii sənətkarlıq" kimi qlobal bir çevrənin predmetinə məharətlə çevrildiyini də nəzərdə tuturuq. Burada, əlbəttə ki, tədqiqatçının klassik poeziyanın yaşarlı ənənələrini və folklor qaynaqlarını özündə ehtiva etməsi, poemanı mümkün bədii arsenalı ilə səciyyələndirmək bacarığı da öz rolunu oynamışdır. Bu kontekstdə açıqlamalardan o da məlum olur ki, Azərbaycan cəmiyyətində cərəyan edən ictimai-siyasi proseslərdən asılı olmayaraq poema janr biçimlərinin yaşarlı komponentlərini iç qatda nəinki yetərincə qoruyub saxlamış, eyni zamanda sənətkarlıq axtarışları kontekstində həm də onları qədərincə inkişaf etdirmişdir. Bunu "Vəzn və qafiyə sistemi" adlı beşinci fəslin bədii sənətkarlıq konsepsiyasını mahiyyət çərçivəsində səciyyələndirən komponentlər də bir daha təsdiq edir.



Tədqiqatçı XX əsrin böyük söz ustaları olan Hüseyn Cavidin, Mikayıl Müşfiqin, Səməd Vurğunun, Rəsul Rzanın, Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, Qabilin, Məmməd Arazın, Nəriman Həsənzadənin və başqalarının poemalarının konkret təhlillərindən haqlı olaraq belə bir qənaətə gəlir ki, rüzgarın rəngindən və ahəngindən asılı olmayaraq janrda bədii sənətkarlıq axtarışları davamlı olduğu qədər də səmərəli olmuşdur. Bu sırada vəzn və qafiyənin poemaların poetik strukturunda mühüm komponent, başqa sözlə, önəmli kompozisiya elementləri olaraq bədii sənətkarlıq kontekstində mənalandırılması müəllifin inceliklərə varmaqla konsepsiya formalaşdırmaq istəyini isbat edir. H.Cavidin "Azər", S.Rüstəmin "Yaxşı yoldaş", S.Vurğunun "Hörmüz və Əhrimən" poemalarının, o cümlədən B.Vahabzadənin və Qabilin əsərlərinin vəzni haqda əsaslandırılmış mülahizələr göstərdi ki, müəllif "Sovet dövrü" Azərbaycan poema ustalarının klassik poeziya ənənələrindən bəhrələnmə meyillərini sənətkarlıq axtarışları kontekstində ilgiləmək istəyində tam haqlıdır.

"Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" kimi fərqli və qlobal bir mövzunu bütün mümkün rakursları ilə müasir ədəbiyyatşünaslıq elmi müstəvisində reallaşdıran bu araşdırmanın sanbalından doğan məziyyətləri, əlbəttə ki, qədərincədir. Əslində, bu tədqiqat işinin nəzəri, tarixi, poetik açıqlamalarına ayrı-ayrılıqda münasibət göstərmək, təhlil verib fikir söyləmək yığcam bir məqalə üçün mümkünsüzdür. Düşüncəmdə qərarlaşan budur ki, çeşidli konseptual mülahizələri, elmi-məntiqi ümumiləşdirmələri, tarixi-poetik incələmələri özündə qabarq şəkildə ehtiva edən "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" adlı monoqrafiya, sözün əsl mənasında, geniş erudisiyalı tədqiqatçının böyük zəhmətinin, gərgin, aramsız axtarışlarının və dərin düşüncələrinin səmərəli məhsuludur və ədəbiyyatşünaslığımıza layiqli töhfədir. Bu araşdırma professor Rafiq Yusifoğlunun həm də incə bədii zövq və duyğuya, möhkəmməl tarixi-sosial biliyə, fəlsəfi-analitik təfəkkürə malik olduğunu bir daha təsdiq etmiş oldu. Azərbaycan xalqının tarixinə, ədəbiyyatına həssas və təəssübkeş münasibəti konseptual açıqlamalar üçün həlledici rol oynadığı da şəksizdir. Əməl və qayə adamı kimi tanınan professor Rafiq Yusifoğlunun uğurları, əlbəttə ki, milli-mənəvi dəyərlərə sadiqliyi ilə birbaşa bağlıdır.

Himalay QASIMOV,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor.

DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

OBAMADAN İRANA HÜCUMU DƏSTƏKLƏMƏK TƏLƏB EDİLƏCƏK

İsrailin baş naziri Benyamin Netanyahu ABŞ-a səfəri gedişində prezident Barak Obamadan İranla bağlı ritorikanı sərtləşdirməyi tələb edəcək. Bu barədə "Haaretz" qəzeti danışıqların hazırlanmasında iştirak edən İsrail hökumətindəki mənbəyə istinadən yazıb.

Bu məlumatlara uyğun olaraq Netanyahu ABŞ-dan İranın "müəyyən həddi keçəcəyi" təqdirdə bu ölkəyə qarşı hərbi əməliyyat planlaşdırdığını birmənalı şəkildə bildirməsini əldə etmək niyyətindədir. Obamanın "bütün imkanlar açıq qalır" bəyanatının İsraildə artıq kifayət etmədiyi bildirilir.

Planlaşdırıldığına görə, Vaşinqtona səfər zamanı İsrail və Amerika liderləri İranla bağlı birgə bəyanatla çıxış edəcəklər, lakin bu sənədin mətninin razılaşdırılması çətin başa gəlir. Hər iki tərəfin rəsmi şəxsləri etiraf edirlər ki, Barak Obama və Benyamin Netanyahu arasında normal dialoqun aparılmasına qarşılıqlı etibarın aşkar şəkildə itməsi mane olur. Liderlər bir-birlərindən öz ölkələrinin daxili siyəsətlərinə qarşılıqlı şəkildə qarışmaqda şübhələnirlər.

Barak Obama hesab edir ki, ABŞ-da davam edən prezident kampaniyasında onun israilli həmkan respublikaçıları qızışdırır, Benyamin Netanyahu isə hesab edir ki, Barak Obama İrana zərbənin vacibliyi istiqamətində israilliləri çəkindirməyə cəhd göstərir.

İsrail prezidentinin, baş nazirinin, həmçinin müdafiə nazirinin ABŞ-a səfərləri martın ilk həftəsinə planlaşdırılıb.

Öncə xəbər verildiyi kimi, İsrail İranla bağlı daha sərt mövqe tutur və hesab edir ki, İranın nüvə proqramını hərbi vasitələrlə aradan qaldırmaq üçün vaxt uğurla başa çata bilər.

RUSİYALILAR GÜRCÜSTANA VİZASIZ BURAXILACAQ



Gürcüstan prezidenti Mixeil Saakaşvili çərşənbə axşamı Rusiya ilə viza rejimini birtərəfli qaydada sadələşdirmək təşəbbüsü ilə çıxış edib. Gürcüstan parlamentində səsləndirilən prezidentin təşəbbüsü alqışlarla qarşılanıb. Bu barədə "BBC" agentliyi xəbər verib.

Ölkənin qanunverici orqanına illik məruzəsini təqdim edərkən Mixeil Saakaşvili bəyan edib ki, Gürcüstan Rusiya ilə iqtisadi münasibətləri alışlayır və ölkənin qapıları rusiyalı iş adamları üçün açıqdır.

Saakaşvili deyib: "Biz heç bir vaxt Gürcüstanı rusiyalı investorlar və turistlər üçün bağlamamışıq—bu il yüz minlərlə turist və iş adamlarını gözləyirik".

Prezidentin sözlərinə görə, rusiyalı vətəndaşlar bilməlidirlər ki, onlar hər zaman Gürcüstana gələ bilər, rusiyalı turistlərə burada gürcü çaxın və Borjomi içməsinə heç kim mane ola bilməz.

Mixeil Saakaşvili fevralın 29-da Rusiya vətəndaşları üçün vizasız rejimin tətbiq olunması barədə müvafiq sənəd imzalayıb. Bu sənəd imzalandığı gündən qüvvəyə minir.

Qeyd edək ki, Rusiya Gürcüstandan gələn çaxırların və mineral suların idxalına 2006-cı ildən qadağa qoyub.

2008-ci il avqust müharibəsindən sonra Gürcüstan və Rusiya arasında diplomatik münasibətlər kəsilmişdir. Buna baxmayaraq, rusiyalı vətəndaşların Gürcüstana gəlmələri heç də mürəkkəb deyildi.

2010-cu ilin oktyabrından Gürcüstan Rusiya Federasiyasının Şimali Qafqaz sakinləri üçün 90 günlük vizasız rejim tətbiq edib. Bu güzəştlər Moskvada hiddətə səbəb olmuşdu.

ŞİMALİ KOREYA NÜVƏ SINAQLARINI ƏRZAĞA DƏYİŞİR



KXDR nüvə silahının sınağına, uzaqmənzilli raketlərin buraxılmasına moratorium tətbiq etməyə, eləcə də uranın zənginləşdirilməsi ilə bağlı işlərin dayandırılmasına razılıq verib.

Bundan başqa, Şimali Koreya hakimiyyəti atom enerjisindən dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlığın inkişafı üçün beynəlxalq təşkilatın (MAQATE) müfəttişlərinin Yonbendə ölkənin ən iri nüvə obyektinə—elmi-tədqiqat mərkəzinə buraxılmasına razılıq verib.

Birləşmiş Ştatlar öz növbəsində KXDR-ə ərzaq yardımı göstərməyi, eləcə də ikitərəfli münasibətləri yaxşılaşdırmaq üçün digər tədbirlər görməyi öhdəliyə götürüb.

Koreyanın Mərkəzi Teleqraf Agentliyi razılaşma haqqında məlumatı təsdiqləyib. Rəmi məlumatlara uyğun olaraq ABŞ KXDR-ə 240 min ton ərzaq yardımı göstərəcək. ABŞ hökuməti və KXDR arasında danışıqlar ötən həftə Pekində baş tutub.

Qeyd edək ki, KXDR nüvə silahının yayılmaması üzrə müqavilədən 2003-cü ildə çıxıb. Bundan sonra Şimali Koreya nüvə proqramı üzrə Çin, ABŞ, Rusiya, Cənubi Koreya və Yaponiyanın iştirakı ilə başlayan danışıqlar uzun müddət nəticə vermirdi.

KXDR ölkədə nüvə silahının yaradılması haqqında ilk dəfə 2005-ci ildə bəyan edib. Bu bəyanatların ardınca nüvə sınaqları keçirilməyə başlayıb (2006 və 2009-cu illər).

BƏŞƏR ƏSƏDİN QOŞUNLARI HOMSA DAXİL OLDU

Suriya prezidenti Bəşər Əsədin elit qoşunları martın 1-də son üç həftə ərzində mühasirədə olan, müxalifətin əsas sığınacaq yeri sayılan Homs şəhərinə daxil olub. Xəbəri "Röyters" agentliyi yayıb.

Homs şəhəri bütün gecə bir neçə saat davam edən bombalamanın ardınca güclü artilleriya atşinə tutulub. Məlumatı müxalifət mənbələri yayıb. Bundan sonra hökumət qoşunları şəhərə daxil olub və orada hazırda Baba-Əmr rayonu uğrunda döyüşlər gedir.

Üsyançı Azad Suriya Ordusunun rəhbərlərindən birinin məlumatına görə, hazırda Baba-Əmr rayonunda sayı 7 mindən çox olan hökumət qoşunları var.

Müxalif Ali Hərbi Şuranın üzvü Mohaymen ar-Rumeyd "Röyters"ə xəbər verib ki, pulemyotlar və qumbaraatanlarla silahlanmış üsyançı ordu hələlik öhdəsində zirehli texnika və raket qurğuları olan hakimiyyətyönlü qoşunların qarşısını ala bilir.

Bu həftə BMT xəbər verib ki, Suriyada mülki əhali arasında ölənlərin sayı 7500 nəfəri keçib. Təşkilat həmçinin Suriyaya humanitar missiya göndərməyə cəhd etsə də, ölkə hakimiyyəti buna icazə verməyib. Çərşənbə günü aydın olub ki, BMT-nin Təhlükəsizlik Şurası Suriya ilə bağlı yeni qətnamə üzərində işləyir. ■